*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*

*2008-ci il 23 aprel tarixli 93 nömrəli qərarı ilə*

*TƏSDİQ EDİLMİŞDİR*

# Cıdır-şans (totalizator) oyunlarının təşkili və keçirilməsi, dövriyyəsindən əldə olunan vəsaitin və uduş fondunun bölünməsi

# Q A Y D A L A R I

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar «Atçılıq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 580 nömrəli Fərmanının 1.13-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və cıdır-şans (totalizator) oyunlarının təşkili və keçirilməsi dövriyyəsindən əldə edilən vəsaitin və uduş fondunun bölünməsi qaydalarını tənzimləyir.

1.2. Cıdır-şans (totalizator) oyunları mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün cıdır meydanlarında qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq, atların rəsmi sınağı ilə birgə keçirilir. Bu oyunlar cıdır meydanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, damazlıq atçılığın stimullaşdırılmasına və sahənin gəlirlə işləməsinə xidmət edən mərc sistemidir.

## 2. CIDIR-ŞANS (TOTALİZATOR) OYUNLARININ TƏŞKİLİ

2.1. Cıdır-şans (totalizator) oyunları cıdır yarışlarında keçirilir.

2.2. Bu Qaydalara riayət olunması ilə cıdır-şans (totalizator) oyunlarının keçirilməsi öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və cıdır meydanının rəhbərliyi tərəfindən təmin edilir.

2.3. Mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, bütün cıdır meydanlarının, atları yarışda iştirak edən təsərrüfatların və şəxslərin bu Qaydalara əməl etmələrinə Azərbaycan Respublikasının ~~Prezidenti yanında~~ Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi öz səlahiyyətləri daxilində nəzarət edir. i[1]

Azərbaycan Respublikasının ərazisində bu Qaydalara əməl edilmədən keçirilən cıdır-şans (totalizator) oyunları etibarsız hesab edilir.

2.4. Cıdır-şans (totalizator) oyunlarının təşkili üçün ilk növbədə aşağıdakı tədbirlər görülür:

2.4.1. cıdır-şans (totalizator) oyunları keçirilən yarışlardan ən azı 5 gün əvvəl yarış proqramı tərtib edilir. Proqramda yarışların keçirilmə tarixi, iştirak edəcək atların mənsubiyyəti, ləqəbi, nəsli, rəngi, yaşı, cinsi, cinsiyyəti, məşqçi və jokeyin adı və soyadı, ustalıq dərəcələri, jokeyin xüsusi geyiminin (kamzol, kartur və s.) təsviri, çəkisi göstərilir;

2.4.2. cıdır yarışları keçirilərkən, tərtib olunan proqramda cıdır-şans (totalizator) oyunlarının keçirilməsi və bununla bağlı digər zəruri məlumatlar əks etdirilir;

2.4.3. sınaq yarışları zamanı qarşılıqlı mərcə pul qoyuluşu kassalar vasitəsilə həyata keçirilir;

2.4.4. sınaq yarışlarının gedişi ilə yanaşı cıdır-şans (totalizator) oyunlarının şərtləri, nəticələri beynəlxalq standartlara uyğun xüsusi avtomatlaşdırılmış sistem vasitəsilə elan edilir.

2.5. Cıdır-şans (totalizator) oyunlarının keçirilməsində aşağıdakı məhdudiyyətlər nəzərə alınmalıdır:

2.5.1. cıdır meydanının rəhbər və işçilərinin, hakimlər kollegiyası üzvlərinin, məşqçi və jokeylərin bu və ya digər formada qarşılıqlı mərcə girmələri qadağan edilir;

2.5.2. tamaşaçıların kassadan kənarda mərc oynamalarına yol verilmir;

2.5.3. hakimlərin xüsusi işarəsindən sonra cıdır-şans (totalizator) bilet satışı dayandırılır.

2.6. Cıdır- şans (totalizator) oyunlarında iştirak etmək istəyən şəxslər bu Qaydaların tələblərinə əməl etməlidirlər:

2.6.1. cıdır-şans (totalizator) oyunlarının qaydalarını bilmək və bu qaydaları qəbul etmək;

2.6.2. ən azı bir cıdıra pul qoymaq;

2.6.3. pul qoyduğu atın qalib gəldiyi təqdirdə uduşu almaq;

2.6.4. səhv proqnoz verdikdə, məğlubiyyətlə razılaşmaq.

## 3. CIDIR- ŞANS (TOTALİZATOR) OYUNLARININ KEÇİRİLMƏSİ

3.1. Cıdır-şans (totalizator) oyunları keçirilən cıdır yarışlarında iştirak edəcək atlar yarışdan əvvəl nümayiş meydançasına çıxarılaraq, müəyyən edilmiş vaxt ərzində tamaşaçılara nümayiş etdirilir.

3.2. Atların nümayişi zamanı baş hakimin xüsusi işarəsi ilə startqabağı son uzun zəngdən sonra biletlərin satışı dayandırılır.

3.3. Hakimin göstərişinə əsasən oyuna start verilir və yarış nəticəsində hər cıdırda qaliblər müəyyənləşdirilir.

3.4. Mərcin konkret növü cıdır meydanının rəhbərliyi tərəfindən müəyyənləşdirilir və əvvəlcədən iştirakçılara elan edilir.

3.5. Cıdır zamanı aşağıdakı mərc formalarından istifadə olunur:

3.5.1. «tək» mərc növü-hakimlər kollegiyası tərəfindən müəyyən edilən bir cıdırda bir atın qalib sayılması oyunudur;

3.5.2. «cüt» mərc növü-hakimlər kollegiyası tərəfindən müəyyən edilən ardıcıl iki cıdırda birinci sayılan atlar üzrə tərtib edilən oyundur. Bu halda birinci cıdırın birincisi ilə ikinci cıdırın birincisi düzgün müəyyən edilirsə udmuş sayılır;

3.5.3. «ikili» mərc növü-müvafiq olaraq bir cıdırda birinci və ikinci yerləri tutan atlara pul qoyuluşu oyunudur. Bu oyunda atların yer tutma ardıcıllığı nəzərə alınır;

3.5.4. «uzun tək» mərc növü – «üç tək», «dörd tək» və sair «səkkiz tək»ə qədər ola bilər. Bu mərc növü hər cıdır günü üçün nəzərdə tutulur və müvafiq olaraq müxtəlif cıdırlarda birinci yeri tutan atlara uyğun gəldikdə udulur;

3.5.5. «üçlük cüt» mərc növü – bir cıdırda birinci, ikinci, üçüncü yeri tutan atlara düzgün sırası ilə pul qoyanlar udmuş sayılır;

3.5.6. «dördlük cüt» mərc növü - bir cıdırda birinci, ikinci, üçüncü və dördüncü yeri tutan atlara düzgün sırası ilə pul qoyanlar udmuş sayılır.

## 4. CIDIR-ŞANS (TOTALİZATOR) OYUNLARININ DÖVRİYYƏSİNDƏN ƏLDƏ OLUNAN VƏSAİTİN VƏ UDUŞ FONDUNUN BÖLÜNMƏSİ

4.1. Cıdır-şans (totalizator) oyunları zamanı bilet satışından əldə edilmiş ümumi vəsaitdən müəyyən olunmuş qaydada vergilər hesablanaraq, dövlət büdcəsinə ödənilir. Qalan məbləğin 50 faizi cıdır meydanının hesabına keçirilir və digər 50 faizi mərcdə udmuş şəxslər arasında bölünür. Cıdır meydanının hesabında qalan məbləğin 50 faizi cıdır yarışlarının mükafat fondunun formalaşmasına, 50 faizi isə cıdır meydanının büdcəsinə keçirilir.

4.2. Qarşılıqlı mərclərin nəticələri hakimlər kollegiyası tərəfindən rəsmi protokollaşdırılır.

4.3. Hər hansı bir cıdır hakimlər kollegiyası tərəfindən baş tutulmamış sayıldığı və yaxud nəticəni müəyyən etmək mümkün olmadığı hallarda, uduş fondu bu məqsəd üçün yığılmış bütün vəsait, yəni uduş fondu həmin atlara pul qoymuş şəxslərə qaytarılır. Hakimlər kollegiyası tərəfindən nəticələrin sayılmaması barədə tərtib edilən protokol vəsaitin qaytarılması üçün əsasdır.

4.4. Qarşılıqlı mərc oyununda pul məbləği ilə hesablaşma, hər bir mərc növü üzrə yığılmış uduş fonduna görə aşağıdakı kimi aparılır:

4.4.1. pul qoyuluşunun cəmi məbləği və qaytarılacaq məbləğ;

4.4.2. məbləğin müəyyən edilmiş faizinin cıdır meydanının xeyrinə köçürülməsi;

4.4.3. udanlar arasında bölünəcək məbləğ;

4.4.4. bölünmüş qalığın ayrılması şərtilə bir uduş kombinasiyasına düşən məbləğ;

4.4.5. uduşun hər manatına düşən əmsalın hesablanması;

4.4.6. baş tutmayan mərclərin məbləğinin yenidən hesablanması;

4.4.7. udmuş biletlərə düşən məbləğlərin qəpiyə qədər yuvarlaqlaşdırılması.

### QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 6 yanvar 2009-cu il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 22)**

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

i[1] 6 yanvar 2009-cu il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 22)** ilə "Cıdır-şans

(totalizator) oyunlarının təşkili və keçirilməsi, dövriyyəsindən əldə olunan vəsaitin və uduş fondunun bölünməsi Qaydaları"nın 2.2-ci və 2.3-cü bəndlərindən "**Prezidenti yanında**" sözləri çıxarılmışdır.